**AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ**

AZ 1025, Bakı şəhəri, Yusif Səfərov küçəsi 26 Tel.: (+994 12) 489-07-07 Faks: (+994 12) 498-72-69 Veb: www.supremecourt.gov.az Elektron poçt: contact@supremecourt.gov.az

**3 avqust 2026-cı il** **1-8-12/2-6424/2026**

**Azərbaycan Respublikasının məhkəmələrinə**

**(siyahı üzrə)**

Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən Azərbaycan Respublikasının Ali Məhkəməsinə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə qəbul edilmiş “Konstitusiya və Suverenlik ili” münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli Qərarının tətbiqi ilə bağlı bir sıra məsələlərə izah verilməsi haqqında müraciət daxil olmuşdur.

Müraciətdə aşağıdakı suallar üzrə izahların verilməsi xahiş olunur.

1. Amnistiya elan edilməsi haqqında qərarın 3-cü hissəsində nəzərdə tutulmuş (amnistiya qaydasında cəzası 6 ay azaldılmış) şəxslərin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi və ya məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsi hüququ hansı vaxtdan yaranır, yəni cəzanın çəkilmiş hissəsi müəyyən olunarkən hökmlə təyin edilmiş, yoxsa amnistiya qaydasında 6 ay azaldılmış cəza əsas kimi götürülməlidir?

2. Şəxs barəsində amnistiyanın tətbiqinə dair qərar ləğv edildiyi təqdirdə həmin qərara əsasən cəzadan azad edilmiş məhkumun qərar ləğv olunanadək azadlıqda olduğu müddət onun cəza müddətinə əlavə olunmalı (yəni, şəxs buna bərabər müddətdə cəza çəkməli), yoxsa həmin müddət artıq cəzanın çəkilmiş müddəti kimi qiymətləndirilib cəzaçəkmə müddətinə daxil edilməlidir?

3. Amnistiya elan edilməsi haqqında Qərarın 39-cu hissəsində nəzərdə tutulmuş 4 ay tətbiq müddəti keçdikdən sonra da Qərarın 19.1-19.4-cü bəndlərində nəzərdə tutulmuş orqanlar tərəfindən amnistiyanın tətbiq edilməsi mümkündürmü?

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/QEiAY9UnnOgr38faTb9yMiD94iq1T7%2FD5rt%2Fx7q89yk%3D

Qeyd olunan müraciətlə əlaqədar məhkəmələr tərəfindən “Konstitusiya və Suverenlik ili” münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli Qərarının tətbiqi ilə bağlı hüquq tətbiq etmə təcrübəsinin vahidliyini təmin etmək məqsədi ilə aşağıdakı izahlar verilsin:

**I**. Amnistiya elan edilməsi haqqında Qərarın 3-cü hissəsində nəzərdə tutulmuş (amnistiya qaydasında cəzası 6 ay azaldılmış) şəxslərin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi və ya məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsi hüququnun hansı vaxtdan yaranması sualı ilə əlaqədar qeyd olunur ki, həmin məsələnin həllinə dair izah Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun “Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə ilə bağlı məhkəmə təcrübəsi haqqında” 8 oktyabr 2010-cu il tarixli 02/2010 nömrəli qərarında verilmişdir.

Plenum qərarının 6-cı bəndinə əsasən “Şəxsə təyin edilmiş cəza əfvetmə və ya amnistiya qaydasında, habelə digər əsaslarla azaldılarsa, onun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzasının çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz olunması və ya cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi zamanı qanunla müəyyən edilmiş müddətlərin hesablanması üçün məhkəmənin təyin etdiyi cəza deyil, faktiki olaraq əfvetmə, amnistiya və ya başqa əsaslara görə azaldılmış cəza müddəti nəzərə alınmaqla hesablanmalıdır.”.

Müraciətdə istinad olunan Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli Qərarının 3-cü bəndində həmin Qərarın 1-ci və 2-ci hissələrində nəzərdə tutulmuş şəxslərdən başqa 3.1 və 3.2-ci bəndlərdə göstərilən şəxslərin cəzasının (Qərar qüvvəyə mindiyi günədək cəzanın çəkilməmiş hissəsinin nə qədər müddət təşkil etməsindən asılı olaraq) 6 ay azaldılması müəyyən edilmişdir.

Amnistiya elan edilməsi haqqında Qərarın 3.1 və 3.2-ci bəndləri hökmlə təyin olunmuş cəzanın yenidən müəyyən edilməsini (hökmün cəza təyini hissəsində dəyişdirilməsini) ehtiva etmədiyi üçün amnistiya tətbiq edilərkən məhkumun Amnistiya elan edilməsi haqqında Qərar qüvvəyə mindiyi günə çəkilməmiş olan cəza müddəti müəyyən edilib 6 ay azaldılsa da, bununla faktiki olaraq onun ümumiyyətlə cəzası 6 ay azaldılmış olur.

Odur ki, şəxsin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi və ya məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsi üçün müraciət etmək hüququnun nə vaxtdan yaranması ilə bağlı məsələlər həll olunarkən müvafiq olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 76.3-cü maddəsində və Cəzaların İcrası Məcəlləsinin 70.2.3, 70.2.4-cü maddələrində təsbit edilən məhkuma təyin edilmiş cəza müddətlərinin çəkilmiş hissələri müəyyən edilərkən Ali Məhkəmənin Plenum Qərarının 6-cı bəndinə əsasən artıq hökmlə müəyyən edilmiş cəza müddəti deyil, amnistiyanın tətbiqi qaydasında 6 ay azaldılmış olan müddət təyin olunan cəza müddəti kimi götürülməli və məhkumun

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/QEiAY9UnnOgr38faTb9yMiD94iq1T7%2FD5rt%2Fx7q89yk%3D

cəzasının hansı hissəsini çəkməsi və cəzanın hansı hissəsinin çəkilməmiş qalması kimi məsələlər məhz həmin müddətə (6 ay azaldılmış olan cəza müddətinə) nəzərən hesablanmalıdır.

Məsələn, məhkəmə hökmü ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263.3-cü maddəsi ilə 6 il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxsin (Amnistiya elan edilməsi haqqında Qərarın 3.2-ci bəndinin təsiri altına düşən məhkumun) cəzasının çəkilməmiş hissəsi amnistiya qaydasında 6 ay azaldılmışsa, onun məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsi ilə əlaqədar müraciət etmək hüququnun nə vaxtdan yaranması məsələsi həll olunarkən bunun üçün Cəzaların İcrası Məcəlləsinin 70.2.3-cü maddəsi ilə tələb olunan cəza müddətinin çəkilmiş hissəsi (məhkumun cəza müddətinin üçdə iki hissəsini çəkib-çəkməməsi) artıq hökmdə göstərilən cəza müddətinə görə deyil, amnistiya qaydasında azaldılmış müddətə görə hesablanmalı, yəni məhkumun 6 ilin üçdə iki hissəsini deyil, 5 il 6 ayın üçdə iki hissəsini çəkdiyi müəyyən edildiyi halda o, məntəqə tipli cəzaçəkmə müəssisinə keçirilməsi üçün tələb olunan cəza müddətini çəkmiş şəxs kimi nəzərdən keçirilməlidir.

**II.** Amnistiyanın tətbiq edilməsi barədə qərar ləğv edildiyi təqdirdə amnistiya qərarına əsasən cəzadan azad edilmiş məhkumun həmin qərar ləğv olunanadək azadlıqda olma müddətinin onun cəza müddətinə əlavə olunması və ya cəzaçəkmə müddətinə daxil edilməsinin qanunauyğunluğu barədə müraciətdə qaldırılan sualla əlaqədar aşağıdakılar qeyd olunur:

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 8-ci maddəsində cinayət törətmiş şəxsləri ifşa və cinayət məsuliyyətinə cəlb etmək, cinayət törətməkdə ittiham olunan şəxsləri onların təqsirliliyi müəyyən edildiyi halda cəzalandırmaq cinayət mühakimə icraatının vəzifələri sırasında göstərilmişdir.

Cinayət Məcəlləsinin 41.1-ci maddəsində cəza məhkəmə hökmü ilə təyin edilən cinayət törətməkdə təqsirli hesab edilən şəxsə tətbiq olunan, həmin şəxs barəsində bu Məcəllə ilə müəyyən edilən məhrumiyyətlər yaradılmasından və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarət olan cinayət-hüquqi xarakterli tədbir kimi müəyyən edilmişdir. CM-in 41.2-ci maddəsinə əsasən cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir.

CM-in 55.1-ci maddəsinə əsasən müəyyən müddətə azadlıqdan məhrum etmə məhkumun məntəqə tipli, ümumi, ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisəsinə və ya həbsxanaya yerləşdirilməsi yolu ilə onun cəmiyyətdən təcrid olunmasından ibarətdir.

Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 8-ci maddəsində isə cəzanın məqsədlərinin mühüm elementi olan məhkumların islah edilməsinin nəyi ehtiva etdiyi və hansı vasitələrlə təmin olunduğu təsbit edilmişdir.

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/QEiAY9UnnOgr38faTb9yMiD94iq1T7%2FD5rt%2Fx7q89yk%3D

Belə ki, CİM-in 8-ci maddəsinə əsasən məhkumların islah edilməsi – onlarda itaətin həvəsləndirilməsi, insana, cəmiyyətə, əməyə, birgəyaşayış qayda və ənənələrinə hörmət və ehtiramın formalaşdırılmasıdır.

Məhkumların islah edilməsinin əsas vasitələri olaraq CİM-in 8.2-ci maddəsində aşağıdakılar nəzərdə tutulmuşdur:

_ cəzanın icrasının və çəkilməsinin müəyyən edilmiş qaydası (rejim);

_ tərbiyə işi;

_ ictimai faydalı əmək;

_ ümumi təhsil;

_ peşə təhsili və peşə hazırlığı;

_ ictimai təsir.

CİM-in 8.3-cü maddəsinə əsasən məhkumlara islah edilmə vasitələri cəzanın növü, törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsi və xarakteri, məhkumun şəxsiyyəti və davranışı nəzərə alınmaqla tətbiq edilir.

Amnistiyanın qanunsuz və əsassız olaraq tətbiq edilməsi nəticəsində azadlıqdan məhrum etmə cəzasını çəkməkdən azad edilmiş şəxsin azadlıqda olduğu dövrün müstəsna olaraq qərarın yanlış olmasından çıxış etməklə cəzanın çəkilməsi müddətinə hesablanması, yəni cəzanın çəkilməsi ilə eyniləşdirilməsi cəzanın hüquqi təbiətinin inkar edilməsi deməkdir və cəzanın məqsədlərinin realizə olunmaması, ümumiyyətlə həmin şəxsə münasibətdə cinayət mühakimə icraatının vəzifələrinin həyata keçirilməməsi ilə barışmaq anlamına gəlir. Eyni zamanda, bu halda iki - bir araya sığmayan (bir tərəfdən qanunsuz və əsassız, digər tərəfdən qanuni və əsaslı qərarlar) doğurduqları hüquqi nəticələr baxımından tamamilə eyniləşdirilir.

Halbuki, düzgün olmayaraq amnistiya qaydasında cəzadan azad olunmuş şəxs, cəzanın çəkilməsinə olan (cəzanın anlayışı və məqsədləri ilə şərtləndirilən) qanuni zərurət aradan qalxmadığı halda, tamamilə sərbəst qalır və bu vəziyyətində o, CM-in 42.1-ci və 55-ci maddələri ilə ehtiva olunan məhrumiyyətlərlə üzləşmədiyi üçün müstəsna olaraq formal əsasla CİM-in 8-ci maddəsində göstərilən islah etmə vasitələrinin təsirindən də kənarda olur, beləliklə də yalnız sosial ədalətin bərpası deyil, həm də məhkumun islah edilməsi kimi cəzanın məqsədləri realizə olunmamış qalır.

Məhkumun səhv qərar əsasında, yəni faktiki olaraq qanuni əsas olmadan amnistiya qaydasında cəzadan azad olunduqdan sonra sərbəst qalmasının cəzanın çəkilməsi kimi səciyyələndirilməsi, yəni amnistiyanın tətbiqi məsələsi üzrə səhv məhkəmə qərarı ilə qanuni məhkəmə qərarı arasında fərqin qoyulmaması ədalət mühakiməsinin tərbiyəvi təsirini aşağı salmaqla məhkum, habelə başqa şəxslər tərəfindən yeni

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/QEiAY9UnnOgr38faTb9yMiD94iq1T7%2FD5rt%2Fx7q89yk%3D

cinayətlərin törədilməsinin qarşısını almaq kimi cəzanın digər məqsədinin də həyata keçirilməsinə əngəl olur.

Əslində, belə vəziyyət amnistiyanın təbiqinə dair qanunsuz qərarın yaratdığı hüquqi nəticələrin tanınmasını, yəni şəxsin azadlıqda olduğu dövrün cəzanın çəkilməsi müddəti kimi qiymətləndirilməsini deyil, belə qərarın ləğv edilməsinin məntiqi nəticəsi olaraq həm də onun səbəb olduğu bütün halların ortadan qaldırılmasını, yəni yalnız şəxsin cəzaçəkmə müəssisəsinə qaytarılmasını yox, həm də hökmlə müəyyən olunmuş cəza müddətini çəkməsini tələb edir. Əks halda, sadəcə qanunsuz qərarın ləğv edilməsi (onun doğurduğu hallar mümkün olduğu qədər ortadan qaldırılmadığı vəziyyətdə) ləğv etməni adi formallığa çevirmiş olar.

Təhlil edilən məsələ üzrə şəxsin cəzadan azad edilməsinin və bundan sonra sərbəst qalmasının amnistiyanın tətbiqinə dair qanunsuz qərara əsaslanması, habelə sərbəst qalma dövrünün heç bir əlamət baxımından azadlıqdan məhrum etmə cəzasının çəkilməsi dövrü ilə eyniləşdirilməsinin mümkün olmaması həlledici amillər kimi götürüldüyündən, qanunsuz qərarın çıxarılmasına hansı halların səbəb olmasının, o cümlədən məhkumun özünün bunda rolunun olub-olmamasının (məsələn, saxta sübutlar təqdim edib-etməməsinin, amnistiyanın tətbiqinə təşəbbüs göstərib-göstərməməsinin) əhəmiyyəti yoxdur. Çünki, qanunsuz qərarın çıxarılmasına səbəb olmuş və ya təsir etmiş heç bir hal bu cür qərar əsasında şəxs amnistiya qaydasında cəzadan azad edildikdən sonra onun sərbəst qalıb cəza çəkməməsi kimi gerçəkliyi, müvafiq olaraq qərar ləğv olunub o, cəzaçəkmə müəssisəsinə qaytarıldıqdan sonra sərbəst qaldığı dövrə bərabər müddət də daxil olmaqla hökmlə müəyyən edilmiş cəza müddətini çəkmək zərurətini ortadan qaldırmır.

Amnistiyanın tətbiqi barədə qərarın ləğv edilməsi ilə əlaqədar məhkumun cəzaçəkmə müəssisəsinə qaytarılmasından sonra onun azadlıqda olduğu müddətə bərabər olan müddəti də çəkməsi sualda göstərilən qaydada, yəni cəzaya əlavə olunan müddət (təyin olunmuş cəza müddətinin hüdudlarından kənara çıxma və ya məhkəmə səhvinə görə məhkumun üzərinə əlavə məhdudiyyətin qoyulması) kimi də nəzərdən keçirilə bilməz.

Belə ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 69-cu maddəsinə əsasən azadlıqdan məhrum etmənin müddəti aylarla və illərlə hesablanır.

Cinayət-Prosessual Məcəllənin 353.4.2, 353.4.3, 353.4.5-ci maddələrinə əsasən ittiham hökmünün nəticə hissəsində şəxsin təqsirli bilindiyi hər bir cinayətə görə təyin edilmiş cəza növü və həddi, çəkilməli olan yekun cəza tədbiri və cəzaçəkmə müddətinin başlanğıcı göstərilməlidir.

Başqa sözlə, hökmlə müəyyən edilməli və bu aktın nəticəvi hissəsində göstərilməli olanlar cəzanın nə vaxt başa çatması (başa çatmalı olduğu konkret tarix) deyil, onun müddəti (neçə il, neçə ay sürməsi) və başlanğıcıdır.

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/QEiAY9UnnOgr38faTb9yMiD94iq1T7%2FD5rt%2Fx7q89yk%3D

Bu da ondan irəli gəlir ki, hətta cəzanın reallıqda çəkilməyə başlanılmasından sonra belə bəzi dövrlərin hökmlə təyin edilmiş cəza müddətinə hesablanmasını istisna edən halların meydana gəlməsi mümkündür ki, bü cür hallarda hökmlə müəyyən olunmuş cəza müddətinin (məsələn, 3 ilin) sonu cəzaçəkmə müddətinin başlanğıcından riyazi hesablanmış eyni müddətin sonu ilə üst-üstə düşməyə, yəni çəkilməli olan cəza müddəti (həmin 3 il) daha gec tamamlana bilər (məsələn, CİM-in 67.2-ci maddəsinə əsasən məhkumun bir gündən artıq icazəsiz məntəqə tipli cəzaçəkmə müəssisəsinin ərazisində olmaması cəzanın icrası müddətinə hesablanmır, eynilə CİM-in 51-2.2-ci maddəsinə əsasən azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası zamanı məhkuma inzibati tənbeh kimi verilmiş, yaxud başqa cinayət işi ilə əlaqədar qətimkan tədbiri kimi seçilmiş həbsin müddəti həmin cəzanın icrası müddəti hesablanarkən nəzərə alınmır).

Lakin bu o demək deyil ki, belə hallarda şəxs hökmlə təyin olunmuş müddətdən artıq cəza çəkir və hansısa (cəzaçəkmə müddətinə hesablanmayan) müddət cəza müddətinə əlavə olunur.

Bütün hallarda məhkumun çəkdiyi cəza müddəti hökmlə müəyyən olunmuş cəzanın, o cümlədən azadlıqdan məhrum etmənin müddətini aşmır və məhkum CİM-in 168-ci maddəsinə müvafiq olaraq cəza çəkmənin (misalda qeyd olunan məhz 3 ilin) axırıncı günü, əgər cəza müddəti istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ya ümumxalq hüzn günü qurtarırsa, həmin gündən əvvəlki gün azad edilir.

Qeyd olunmalıdır ki, analoji məsələ üzrə formalaşmış məhkəmə təcrübəsi də amnistiyanın qanunsuz tətbiqinə dair qərar əsasında cəzaçəkmə müəssisəsindən azad olunmuş məhkumun azadlıqda olduğu müddətin cəzanın çəkilmə dövrü kimi qiymətləndirilməsini istisna edir.

Belə ki, yuxarıda istinad olunan, habelə cinayət və cinayət prosessual qanunvericiliyin digər prinsip və normalarına əsasən formalaşmış məhkəmə təcrübəsinə görə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə barədə qərar ləğv edildikdən sonra cəzaçəkmə müəssisəsinə qaytarılmış məhkuma münasibətdə onun bundan sonra çəkməli olduğu cəza müddəti hesablanarkən həmin müddətə şəxsin cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə barədə qərarın çıxarılmasından sonra azadlıqda olduğu müddətə bərabər müddət də daxil edilir və belə məhkum hökmlə təyin olunmuş cəzanın vaxtından əvvəl şərti olaraq azad etmə barədə qərarın çıxarıldığı (azad edildiyi) tarixə çəkilməmiş qalan bütöv hissəsini çəkir.

Odur ki, amnistiyanın tətbiqi qaydasında (sonradan qanunsuzluğu və əsassızlığı müəyyən edilərək ləğv edilmiş qərara əsasən) cəzaçəkmə müəssisəsindən azad olunmuş məhkumun cəzaçəkmə müəssisəsinə qaytarılmasından sonra çəkməli olduğu cəza müddəti hesablanarkən bu müddətə onun azadlıqda olduğu müddətə bərabər müddət də daxil edilməli, yəni hökmlə təyin edilmiş cəzanın çəkilməmiş hissəsi kimi şəxsin cəzaçəkmə müəssisəsinə qaytarıldığı tarixə deyil, qanunsuz olaraq amnistiyanın

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/QEiAY9UnnOgr38faTb9yMiD94iq1T7%2FD5rt%2Fx7q89yk%3D

tətbiqi qaydasında cəzaçəkmə müəssisəsindən azad edildiyi tarixə çəkilməmiş qalmış müddət götürülməlidir.

Belə yanaşma şəxsin hüquq və azadlıqlarının pozulmasını da təşkil etmir. Çünki, məhkum düzgün olmayaraq amnistiya qaydasında cəza çəkməkdən azad edildikdən sonra (cəzaçəkmə müəssisəsinə qaytarıldığı anadək) heç bir məhrumiyyətə məruz qalmır, cinayət mühakimə icraatı ilə əlaqələndirilə biləcək hər hansı məhdudiyyətlə üzləşmir və amnistiyanın tətbiqi barədə qərarın ləğv edilməsindən sonra cəzaçəkmə müəssisəsinə qaytarıldıqda, bununla (yəni amnistiyanın tətbiqinə dair qərarı ləğv edən qərarın çıxarılması ilə) bərpa olunmuş, müstəsna olaraq hökmdən irəli gələn (hökmlə təyin olunmuş cəzanı çəkmək kimi) vəzifəsini icra edir və onun üzərinə artıq yuxarıda qeyd olunduğu kimi hökmlə şərtləndirilməyən heç bir əlavə (cəzanın hüdudlarından və onu müşayiət edən şərtlərdən kənara çıxan) məhdudiyyət qoyulmur.

**III.** Müraciətdə qaldırılan üçüncü sualla bağlı izah olunur ki, Amnistiya elan edilməsi haqqında Qərarın 39-cu hissəsində nəzərdə tutulmuş 4 aylıq müddət keçdikdən sonra da Qərarın 19.1–19.4-cü bəndlərində göstərilən cəzanı ica edən orqanlar tərəfindən bu aktın tətbiq edilməsi aşaşğıdakı səbəblərdən mümkündür və qanunauyğundur.

Belə ki, Amnistiyanın elan olunması haqqında Qərarın 39-cu hissəsindəki 4 aylıq müddətin müəyyən edilməsinə dair göstəriş hüquqi təbiətinə görə təşkilati-icra xarakterli müddət müəyyən edən müddəadır və o, maddi hüquqi məhdudiyyət müəyyən etmir.

Bu müddətin müəyyən edilməsində məqsəd ondan ibarətdir ki, qərarda nəzərdə tutulmuş güzəştlər vaxtında tətbiq edilsin, aidiyyəti dövlət orqanları amnistiya qərarını operativ şəkildə icra etsin, zəruri sənədləşməni tamamlasınlar. Mahiyyət etibarı ilə dörd aylıq müddət barədə müddəa aidiyyəti orqanların üzərinə həmin müddət ərzində, yəni geçikməyə yol vermədən qərarı icra etmək vəzifəsi qoyan tələbdir.

Çünki, hər bir amnistiya elan edilməsi haqqında qərarın nəzərdə tutulduğu cinayət məsuliyyətindən və cəzadan azad etmə, cəzanın azaldılması, məhkumluğun götürülməsi və s. bu kimi güzəştlər elə mahiyyətə malikdirlər ki, onların tətbiqi üçün konkret və mümkün olduğu qədər qısa müddətlər müəyyən olunmalıdır ki, qərarın müvafiq güzəşti müəyyən edən müddəası səmərəli olsun. Qərarda müəyyən olunmuş müddət ərzində güzəştlərin tətbiq edilməməsi, qərarın müvafiq müddəalarını səmərəsiz edə və ya səmərəliliyini xeyli dərəcədə azalda bilər (məsələn, amnistiyanın təsiri altına düşən şəxsin barəsində amnistiyanın tətbiqinin gecikdirilməsi ona gətirib çıxarar ki, şəxsin məhkumluq müddəti keçər və ya cəza müddəti sona çatmış olar).

Lakin icra müddətinə dair tələb amnistiyanın təsiri altına düşən və hər hansı səbəbdən 4 aylıq müddət bitənədək barəsində amnistiya tətbiq edilməyən şəxsin müvafiq güzəştə olan hüququnu ləğv etmir və 4 aylıq müddət ərzində istər obyektiv (məsələn, yuxarı instansiya məhkəməsi tərəfindən əməlin hüquqi tövsifi ilə bağlı məhkəmə səhvinin 4 ay keçdikdən sonra düzəldilməsi nəticəsində artıq məhkumun amnistiyanın təsiri altına düşməsi kimi), istərsə də subyektiv (məsələn, süründürməçiliyə yol verilməsi kimi)

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/QEiAY9UnnOgr38faTb9yMiD94iq1T7%2FD5rt%2Fx7q89yk%3D

səbəblərdən müvafiq şəxsə münasibətdə Amnistiya elan edilməsi barədə Qərarı tətbiq etməyən aidiyyəti icra orqanını Qərarı icra etmək vəzifəsindən azad etmir.

Beləliklə, əgər şəxsin cinayət əməli Amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli Qərarının qüvvəyə mindiyi tarixədək törədilibsə və o, Qərarda irəli sürülən bütün digər şərtlərə cavab verirsə, Qərarın 19.1-19.4-cü bəndlərində qeyd olunan cəzanı icra edən aidiyyəti orqanlar tərəfindən bu Qərarın 39-cu hissəsində nəzərdə tutulmuş müddətin keçməsindən asılı olmayaraq, yəni 4 aylıq müddət keçdikdən sonra da amnistiya tətbiq edilməlidir.

**Cinayət kollegiyasının sədri** **Hafiz Nəsibov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/QEiAY9UnnOgr38faTb9yMiD94iq1T7%2FD5rt%2Fx7q89yk%3D